**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın vətəndaş Mehraliyev Rafiq Dünyamalı oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2009-cu il tarixli 132 saylı müraciəti üzrə**

# R Ə Y İ

**Bakı şəhəri** **28 dekabr 2009-cu il**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Ağstafa rayonu, Pirili kənd sakini Mehraliyev Rafiq Dünyamalı oğlu və digərləri 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək, səsvermə zamanı qanun pozuntularının baş verməsini bildirmiş və yeni seçkilərin təyin edilməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq araşdırmaya qəbul edilmişdir.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, iddia edilən qanunsuzluğun nədən ibarət olunması müəyyən edilmədiyindən, habelə mübahisələndirilən seçkilərin yekunları Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada və müddətdə elan olunmadığından yeni seçkilərin təyin edilməsi üçün qanuni əsaslar və zərurət yaranmamışdır.

Belə halda, müraciət qanunsuz və əsassız hesab edilərək təmin edilməməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciət araşdırılmaq üçün aidiyyəti üzrə müvafiq dairə seçki komissiyasına göndərilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1, 2, 4, 6 və 7 –ci bəndlərinə əsasən **q ə r a r a g ə l d im:**

1. Vətəndaş Mehralıyev Rafiq Dünyamalı oğlunun və digərlərinin müraciətləri əsassız olduğundan təmin edilməsin.
2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin ( Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilisin) və surəti müraciyətçiyə göndərilirsin.

Ekspert qrupunun üzvü V.Kazımova